İctimai-siyasi qəzet

QƏLƏBƏ

TƏSİSÇİLƏR: SALYAN RAYON İCRA HAKİMİYYƏTİ VƏ REDAKSİYANIN JURNALİST KOLLEKTİVİ

17 avqust 2021-ci il, № 23-24 (8.613) | Qəzet 21 fevral 1924-cü ildən çap olunur | qelebesalyan@gmail.com

"İkinci Qarabağ müharibəsindəki məğlubiyyət onlar üçün dərs olmalıdır"

Azərbaycan Prezidenti İlham Əliyev "CNN Türk" televiziya kanalına müsahibə verib

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "CNN Türk" televiziya kanalına müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim etmişdir. Müxbirin" Qarabağ, əslində, 30 ildir işğal altında olan bir bölgə idi. Amma 30 ilin sonunda ilk dəfə həm Zəfər qazanıldı, həm də bu problemin həllinə çox yaxınlaşıldı. Siz bunu necə dəyərləndirirsiniz"? sualına çavab verərkən Prezident İlham Əliyev demişdir ki, bu, bizim üçün tarixi bir Zəfərdir. Çünki qeyd etdiyiniz kimi, 30 il ərzində torpaqlarımız işğal altında idi. Bu, böyük ədalətsizlik idi və beynəlxalq hüququn bütün norma və prinsiplərinə zidd olan bir vəziyyət idi. Təəssüflər olsun ki, 30 il ərzində Minsk qrupu bu məsələnin çözülməsinə yaxınlaşmadı, fəaliyyəti oldu, amma nəticə etibarilə nəticə olmadı. Nəticə sıfıra bərabər idi və Azərbaycan xalqının ümidləri tam tükənmişdi. Çünki 30 il ərzində aparılan danışıqlar nəticəsiz qalırdısa, deməli, bu məsələnin dondurulması prosesi gedirdi. Təbii ki, biz heç zaman bu vəziyyətlə barışmaq fikrində deyildik. Mən son illər ərzində dəfələrlə demişdim ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmayacaq, nəyin bahasına olursa-olsun öz doğma torpaqlarını işğalçılardan azad edəcək və belə də oldu. Dediyim sözlər həyatda öz yerini tutdu və Azərbaycan Qurtuluş savaşına başlayaraq öz tarixi torpaqlarını işğalçılardan azad etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları bizim torpaqlardan qovdu və öz ərazi bütövlüyünü, torpaq bütövlüyünü bərpa etdi.

<u>- Barışmayacaq deyirsiniz, amma Ermənistan həmişə təcavüzkar mövqe sərgiləyib, yaşayış məntəqələrinə də atəş açması, əslində, Azərbaycanı eyni addımı atmağa təhrik edə bilərdi. Ancaq Azərbaycan çox səbirli, təmkinli münasibət göstərdi və eyni qarşılığı vermədi. Bununla bağlı Sizin mövqeyinizi bilmək istərdik.</u>

- Doğrudur, yəni, müzakirə prosesi çərçivəsində də Ermənistan daim bizə qarşı hərbi təxribatlar, provokasiyalar törədirdi və müzakirə prosesinin müxtəlif dövrlərində biz bunu görürdük. Danışıqlar prosesində bir az tərəqqi olan kimi dərhal hərbi təxribat, provokasiya törədilirdi, bizə, mülki əhaliyə hücum edirdi və danışıqları pozurdu. İkinci Qarabağ savaşından öncə - iyul və avqust aylarında da buna oxşar hərbi təcavüz etdi. İyul ayında bizim mülki əhalini və hərbçiləri artilleriya atəşinə tutdu. Bunun nəticəsində bizdə itkilər olmuşdur. Avqust ayında isə təxribat qrupunu Azərbaycana göndərmiş və burada terror aktları törətməyə cəhd etmişdi. Bu təxribat qrupu da zərərsizləşdirildi. Bildiyiniz kimi, ondan sonra - sentyabr ayında yenə də bizim kəndlərimizi və hərbi mövqelərimizi atəşə tutmuşdur. Bunun nəticəsində müharibənin ilk günündə bizdə mülki əhali və hərbçilər arasında itkilər, şəhidlər olmuşdur. Təbii ki, artıq buna son qoyulmalı idi və qoyuldu.

İkinci Qarabağ savaşı dönəmində də Ermənistan döyüş meydanında ilk gündən məğlubiyyətə uğramağa başlamışdı. 44 gün ərzində hər gün biz irəli gedirdik, bir gün belə geri addım atmadıq. Hətta manevr etmək məqsədilə də geri addım atmadıq. Ermənistan isə artıq öz qaçılmaz məğlubiyyətini dərk edərək bizi durdurmaq və mülki əhaliyə böyük zərər vermək üçün şəhər və kəndlərimizi ballistik raketlərlə, artilleriya qurğuları ilə daim atəşə tuturdu. Bunun nəticəsində 100-dən çox mülki şəxs, o cümlədən qadınlar və uşaqlar həlak oldular. Bu görüntülər var. Gəncə, Bərdə, Ağdam, Goranboy, Naftalan, Tərtər, Füzuli və digər bölgələrimizi hər gün atəşə tuturdular. Tərtər şəhərinə, - o qədər də böyük şəhər deyil, - 20 minə yaxın raket düşmüşdür. Ancaq Azərbaycan xalqının iradəsini qıra bilmədilər. Öz yaxınlarını, öz qohumlarını, əqrəbalarını itirmiş insanlar da deyirdilər ki, ancaq irəli getməliyik. Yəni, ermənilərin bu qeyri-insani davranışı da onlara heç bir xeyir, mənfəət gətirmədi, sadəcə olaraq, dünyanın gözü qarşısında özlərini növbəti dəfə vəhşilər kimi göstərdilər. Biz isə buna cavab vermədik, onun üçün Ermənistan tərəfində mülki əhali arasında itkilər çox azdır, təqribən 30 civarında və onların böyük əksəriyyəti savaşda iştirak edənlərdir. Bu, videokadrlarda da var. Biz görürdük ki, bəzi artilleriya qurğularının yanında mülki şəxslər də var və təbii ki, bizim atəşimiz ora düşəndə onlar da həyatlarını itirirdilər. Qarabağ bölgəsində - ermənilərin işğalı altında olan yerlərdə və onların yaşadıqları yerlərdə heç bir dağıntılar olmamışdır. Yəni, bu, bir daha onu göstərir ki, biz müharibəni də ləyaqətlə aparmışıq və savaşa xas olan bütün qaydalara riayət etmişik.

<u>- Biz "CNN Türk" olaraq burada Şuşadan, Ağdamdan, Cəbrayıldan və digər rayonlardan olan insanlarla görüşdük. Hamısı illərdir yurd həsrətini qəlbində daşıyıb. Hamısı indi yenidən oralara getmək, öz yurdlarına, torpaqlarına geri qayıtmaq istəyirlər. Bu insanlar çox acılar çəkib. İnşallah, bundan sonra üzləri həmişə gülər, bir daha belə bir acı yaşamazlar. Siz bu barədə nə söyləmək istərdiniz?</u>

- Əlbəttə ki, onların sevinci bizim sevincimizdir. Mənim üçün ən sevincli günlər onların sevincini görməkdir. Təbii ki, 30 il Vətən həsrəti ilə yaşamış insanlar tezliklə öz yurdlarına, öz torpağına qayıtmaq istəyirlər. Ancaq onu da çox yaxşı bilirlər ki, orada bütün evlər, bütün şəhərlər dağıdılıb. Siz indi bölgələrə gedəcəksiniz, səfər edəcəksiniz, görəcəksiniz ki, Ağdam şəhəri yoxdur. Ağdam şəhərində 30 mindən çox insan yaşayırdı. Şəhərdə bir dənə salamat bina qalmamışdır. Yəni, bütün binaları işğal dövründə erməni vəhşiləri yerlə bir etmişlər. Həmçinin Füzuli şəhəri də, digər şəhərlər və bütün kəndlər də. İnsanlar yüz kilometrlərlə yol qət edirlər və yol boyunca görür ki, sağ-sol, hər tərəf dağıdılıb, yəni, qayıtmağa yer yoxdur. Eyni zamanda, ermənilər orada yüz minlərlə mina basdırıb. Müharibə başa çatandan sonra - 10 noyabr tarixindən bu günə qədər 150-dən çox mülki şəxs və hərbçi minaya düşərək ya həlak olub, ya da ki, öz sağlamlığını itirib. Ona görə minatəmizləmə işi getməlidir və gedir. Ermənistan bizə minaların xəritələrini də vermir və son mərhələdə verilən xəritələrin dəqiqliyi cəmi yüzdə iyirmi beş faizdir. Yəni, burada da özlərini qeyrisəmimi aparırlar. Biz insanların həyatını risk altına ata bilmərik. Ona görə azad edilmiş torpaqlarda - Qarabağda və Şərqi Zəngəzurda indi həm minalardan təmizləmə işləri, eyni zamanda, infrastruktur işləri sürətlə gedir. Siz oraya gedəndə böyük infrastruktur layihələri - yollar, elektrik xətləri, su xətləri, hava limanları, dəmir yolları görəcəksiniz. Yəni, bunlar olmadan oraya həyat qayıda bilməz. Eyni zamanda, Ağdam şəhərinin baş planı da mayın 28-də, bizim Müstəqillik Günündə təsdiqləndi və orada artıq işlər başlayır.

Biz indi o bölgələrə jurnalistləri, ictimai xadimləri, digər yerli və xarici vətəndaşları dəvət edirik və getməyə imkanlar yaradırıq. Eyni zamanda, o yerlərdə yaşamış insanları da yaxın gələcəkdə biz oraya aparacağıq ki, onlar o yerləri görsünlər. Ancaq qayıdış üçün bizə zaman lazımdır. Çünki 30 il ərzində ermənilər o yerləri dağıdıblar və bu gün oranı bərpa etmək, əlbəttə ki, vaxt tələb edir. Bizim burada əsas rəqibimiz zamandır. Çünki Qarabağın və Şərqi Zəngəzurun bərpası üçün kifayət qədər maliyyə vəsaiti toplanıb və səfərbər olunub. Amma bizim əsas rəqibimiz zamandır və hər kəs anlamalıdır ki, burada da zamana ehtiyac var. Lakin biz vətəndaşlarımızı ən qısa müddət ərzində qaytaracağıq. Birinci pilot layihə artıq gerçəkləşir, Zəngilan rayonunda 3 kəndi birləşdirən bir layihə bu ilin sonuna, ya da ki, gələn ilin əvvəlinə hazır olacaqdır. Bu yaxınlarda yenə də bir neçə kəndin planı mənə təqdim edildi, təsdiqləndi. Yaxın gələcəkdə o kəndlərin də layihələri icra ediləcək və tədricən biz insanları o bölgələrə qaytaracağıq.

<u>- İndi isə Ermənistanla bağlı sual vermək istəyirəm. Məğlubiyyətinə baxmayaraq, Nikol Paşinyan yenidən seçildi. Bundan sonra Azərbaycan və Ermənistan əlaqələri hansı şərtlərlə necə bir prosesə daxil olacaq?</u>

- Bunu demək çox çətindir. Çünki biz öz mövqeyimizi dəfələrlə bildirmişdik. Mən bir neçə dəfə öz sözümü açıq demişdim ki, biz istəyirik Ermənistanla sülh müqaviləsi imzalansın. Ermənistan və Azərbaycan bir-birilərinin ərazi bütövlüyünü tanısınlar və sərhədlərin delimitasiyası, yəni, müəyyən edilməsi prosesi də başlasın. Ancaq bu günə qədər Ermənistandan müsbət cavab almamışıq. Belə görünür ki, Ermənistan buna hazır deyil, ya da bunun əleyhinədir. Mən söylədim ki, bu, böyük yanlışlıq olar və onlar özləri də peşman olacaqlar. Çünki biz bu təklifi masa üzərində əbədi saxlamalı deyilik. Əgər buna etiraz edirlərsə, açıq söyləsinlər ki, onlar Azərbaycanla sülh müqaviləsi imzalamaq istəmirlər. Belə olan halda biz də öz siyasətimizi buna uyğun şəkildə aparacağıq. Əgər Ermənistan buna hazırdırsa, əgər Azərbaycanın bütün dünya tərəfindən tanınan ərazi bütövlüyünü tanımağa hazırdırsa, onda əlbəttə ki, bölgəyə uzunmüddətli sülh gələcək. Biz bunu istəyirik və eyni zamanda, buna nail olmaq üçün indi konkret təkliflər də masa üzərindədir. Yolların açılması, Zəngəzur dəhlizinin yaradılması, bütün ticarət əlaqələrinin bərpası, yəni Cənubi Qafqazda uzun fasilədən sonra sülhün təmin edilməsi bizim maraqlarımıza cavab verir. Hesab edirəm ki, Ermənistanın da maraqlarına cavab verir. Çünki Zəngəzur dəhlizi onların da maraqlarına xidmət edəcək. Onlar da dəmir yolu ilə həm İranla, həm Rusiya ilə əlaqə yarada bilərlər. Bu günə qədər bu əlaqə yoxdur və onlar üçün də yeni fürsətlər ortaya çıxacaq.

Ancaq Ermənistanda ifrat millətçilik, türkofobiya, azərbaycanofobiya, islamofobiya o dərəcədə insanların və hakim dairələrin beyinlərini zəhərləyib ki, onlar bunu istəsələr də, dilə gətirə bilmirlər. Ermənistanda cəmiyyət və hakimiyyət təbii ki, indi çox çətin bir psixoloji durumdadır. Çünki onların otuz il ərzindəki ideoloji sütunları darmadağın edildi, mifologiya darmadağın edildi. Erməni ordusunun "müzəffər ordu" olmasını biz 44 gün ərzində yerlə bir etdik. Onların ərazi iddiaları məhv edildi.

<u>- Əslində, onların beş ildə işğal etdikləri torpaqları 44 gündə geri qaytardınız.</u>

- Bəli, əlbəttə, çox çətin bir şəraitdə. Siz indi gedib görəcəksiniz. Onlar altı xətt istehkam qurmuşdular, müdafiə zolağı qurmuşdular və oranı keçmək böyük məharət, qəhrəmanlıq tələb edirdi. Bizim hərbçilərimiz ölümə gedirdilər. Eyni zamanda, o bölgənin coğrafiyası, relyefi də onlar üçün əlverişli idi. Çünki onlar dağlarda yerləşmişdilər, bütün yüksəklikləri götürmüşdülər, biz isə aşağıdan getməli idik. İndi siz Şuşaya da gedəcəksiniz, görəcəksiniz ki, Şuşanın alınması bir möcüzə sayılır.

<u>- Mən onun haqqındakı fikirlərinizi də soruşacaqdım. Çünki Şuşa ilə bağlı atanızın xüsusi vəsiyyəti var idi.</u>

- Atamın vəsiyyəti təkcə Şuşa ilə bağlı deyildi, o vaxt işğal altında olan bütün torpaqlarla bağlı idi. Şuşa alınandan sonra mən atamın qəbrini ziyarət edərək dedim ki, onun vəsiyyətini yerinə yetirdim. Mən həyatımda bəlkə də ən xoşbəxt günlərimdən birini yaşadım. Şuşa, əlbəttə ki, hər bir azərbaycanlı üçün doğma, əziz şəhərdir, böyük rəmzi məna daşıyır. Təsadüfi deyil ki, mən Şuşanı Azərbaycanın Mədəniyyət Paytaxtı elan etdim. Ancaq bütün digər şəhərlər də mənim üçün, bütün Azərbaycan xalqı üçün Şuşa qədər əzizdir və doğmadır. Hər qarış torpaq bizim torpaqdır və onları biz azad etməli idik. Bu, xalq qarşısında, tarix qarşısında, gələcək nəsillər qarşısında bizim borcumuz idi və biz bu borcu şərəflə yerinə yetirdik.

<u>- Bir az əvvəl Zəngəzurdan bəhs etdiniz. Orada dəhlizin açılması, əslində, Türkiyə ilə iqtisadi əlaqələri də gücləndirə bilərmi?</u>

- Əlbəttə, bu dəhlizin açılması bir çox məqsədlərə, hədəflərə xidmət göstərir. Azərbaycanla Türkiyə yeni bir nəqliyyat layihəsi ilə birləşəcək. Bildiyiniz kimi, dörd il bundan əvvəl Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılış mərasimi olmuşdur. Biz bu dəmir yolu sayəsində Türkiyə ilə birləşdik. Zəngəzur dəhlizi isə ikinci bir birləşmə istiqaməti olacaq. Beləliklə, bizim üçün yeni fürsətlər ortaya çıxacaq. Eyni zamanda, Azərbaycan öz ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə də dəmir yolu ilə birləşəcək. Eyni zamanda, biz tələb edirik ki, avtomobil yolu da çəkilsin - Ermənistanın nəzarəti altında olan Qərbi Zəngəzur ərazisində, Mehri bölgəsində. Çünki bu da mütləq lazımdır.

Əfsuslar olsun ki, Ermənistan buna etiraz edir. Son günlərə qədər Zəngəzur dəhlizinin açılmasına etiraz etmişdi. Sadəcə olaraq, bir neçə gün bundan əvvəl orada bir müsbət fikir ortaya çıxdı ki, onlar da etiraz etmirlər. Ancaq Zəngəzur dəhlizinin tam fəaliyyəti üçün həm dəmir yolu, həm avtomobil yolu olmalıdır. Biz Bakıda avtomobilə əyləşib oradan rahatlıqla Türkiyəyə və Naxçıvana keçə bilərik.

Bu, eyni zamanda, bölgə ölkələri üçün də yeni fürsət olacaq. Türkiyə öz mallarını Orta Asiyaya bu daha qısa yolla, alternativ yolla daşıya biləcək. Beləliklə, bu, Avrasiyanın yeni bir nəqliyyat layihəsinə çevrilə bilər. Biz bunu artıq təşəbbüs olaraq ortaya qoymuşuq. Bu dəhlizə Zəngəzur dəhlizi adını da biz qoymuşuq. Artıq bu, beynəlxalq leksikona da daxil edilibdir. Mən bilirəm ki, Avropa İttifaqı bu məsələyə də çox müsbət yanaşır. Bu yaxınlarda Avropa İttifaqı Şurasının Prezidenti cənab Şarl Mişel Bakıda olarkən bu məsələ ilə bağlı biz geniş fikir mübadiləsi apardıq və onlar da təbii ki, bu layihəni çox dəstəkləyirlər.

Yəni, bu, həm Türkiyə, həm Azərbaycan, həm bölgə üçün və o cümlədən Ermənistan üçün də yeni fürsət olacaq. Mən artıq dedim, onlar Rusiya və İranla bu dəmir yolu ilə bağlantı yarada bilərlər. Çünki Ermənistan-İran dəmir yolunun inşası bəlkə də 20 il müzakirə edilən bir məsələdir. Amma hələ ki, ortalıqda bir şey yoxdur. Çünki bu layihə təqribən ən azı 3 milyard dollar tələb edir. Ancaq Naxçıvan ərazisindən, - Naxçıvan ilə İran arasında artıq dəmir yolu xətti var, - istifadə edə bilərlər.

<u>- İndi başqa bir önəmli dəhliz də Laçın dəhlizidir. Belə bir iddia var, o iddianın doğruluğunu Sizdən soruşmaq istəyirəm. "Ermənistanın xarici işlər naziri əsgərləri Laçın dəhlizi ilə Qarabağa göndərir" şəklində bir iddia var. Bu iddia doğrudurmu?</u>

- Əlbəttə, bu, təəssüf ki, doğrudur. Bunu biz bu yaxınlarda təsbit etdik. Bizim Müdafiə Nazirliyi bir neçə gün əvvəl rəsmi açıqlama verdi ki, buna son qoyulsun. Rusiyanın sülhməramlı qüvvələrinin nəzarətində olan ərazilərə Ermənistandan silahlar və hərbçilər göndərilə bilməz. Bu, 10 noyabr üçtərəfli Bəyanatına ziddir. Təəssüf ki, bu günə qədər davam edir. Biz bir neçə dəfə şifahi qaydada öz iradlarımızı bildirmişdik. Ancaq bunun nəticəsi olmadı, ona görə biz rəsmi qaydada bunu bildirdik.

Laçın dəhlizi bizim gözümüzün önündədir. Siz Şuşada olarkən Laçın dəhlizini görə bilərsiniz. Orada bir yer var, yuxarıdan bütün avtomobillər görünür. Oradan məsafə bəlkə də 10 metrdir. Bizim orada təbii ki, texniki vasitələrimiz, kameralarımız var. Biz Laçın dəhlizi ilə Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan bölgələrdə baş verən hadisələri də izləyirik. Xankəndiyə gedən avtomobillərin sayını dəqiqliyi ilə bilirik. Bu yaxınlarda bizim mətbuatda bu məsələ ilə bağlı açıqlama verildi, o cümlədən göstərildi ki, son bir ay ərazində - iyulun 11-dən avqustun 8-dək təqribən 5 minə yaxın insan Xankəndidən Ermənistan tərəfinə getdi və qayıtmadı. Yəni, oradan 20 min insan çıxdı və 15 min insan oraya girdi. Deməli, biz insanların sayına qədər bilirik. Təbii ki, buna son qoyulmalıdır. Çünki bunun heç bir məntiqi əsası yoxdur. Nədir, Ermənistan yeni müharibəyəmi hazırlaşır?! Əgər belədirsə, onda biz qabaqlayıcı tədbirlər görəcəyik. Mən bunu demişdim və bir daha demək istəyirəm, əgər yenə də erməni faşizmi baş qaldırmağa cəhd belə göstərsə, biz onun başını bir daha əzəcəyik. İkinci Qarabağ müharibəsindəki məğlubiyyət onlar üçün dərs olmalıdır...

***

Azərbaycan Prezidenti İlham "CNN Türk" kanalının müxbirinin digər suallarını da cavablandırmışdır.

"Zəfər yolu" tərəqqiyə, inkişafa xidmət edəcəkdir

"Zəfər yolu"nun 2021-ci ilin sentyabrın axırı-oktyabr ayının əvvəli istifadəyə verilməsi nəzərdə tutulur.

Bu barədə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) Avtomobil Yollarının İstismarı və Təmiri Baş İdarəsinin rəis müavini Hidayət Rüstəmov "2021-ci ilin 6 ayı ərzində yerinə yetirilmiş işlər və qarşıda duran vəzifələrə həsr olunmuş brifinq zamanı bildirib.

Onun sözlərinə görə, bu yol M-6 Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun 149-cu kilometrindəki Əhmədbəyli kəndindən başlayır və Füzuli şəhəri, Böyük Tağlar kəndi, Topxana meşəsi, Daşaltı kəndindən keçərək Şuşa şəhərinə çatır. Yolun layihə uzunluğu 101.9 km-dir, 2 hərəkət zolaqdan ibarət olacaq.

H.Rüstəmov onu da əlavə etdi ki, Şuşa şəhərinə 2-ci avtomobil yolu, I texniki dərəcəli olmaqla M-6 Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun 157-ci km-dən başlayır, uzunluğu 81.6 km, 4-6 hərəkət zolaqlı olacaq. Yol üzərində körpü və tunellər tikilməsi nəticəsində, yüksək sürət təmin olunacaq və "Zəfər Yolu" ilə müqayisədə 20.3 km qısa olacaq. Avtomobil yolunun 2024-ci ildə başa çatdırılması nəzərdə tutulub.

Yolların açılması, Zəngəzur dəhlizinin yaradılması, bütün ticarət əlaqələrinin bərpası, yəni Cənubi Qafqazda uzun fasilədən sonra sülhün təmin edilməsi bizim maraqlarımıza cavab verir. Hesab edirəm ki, Ermənistanın da maraqlarına cavab verir. Çünki Zəngəzur dəhlizi onların da maraqlarına xidmət edəcək. Onlar da dəmir yolu ilə həm İranla, həm Rusiya ilə əlaqə yarada bilərlər. Bu günə qədər bu əlaqə yoxdur və onlar üçün də yeni fürsətlər ortaya çıxacaq.

"Azərbaycan əlifbası və Azərbaycan Dili Günü" ilə bağlı tədbir keçirilmişdir

Salyan Rayon İcra Hakimiyyətinin geniş akt zalında "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" münasibətilə keçirilən tədbirdə rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmov, Bakıdan təşrif buyurmuş qonaqlar, rayonun təhsil, mədəniyyət işçiləri, ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Əlamətdar gün münasibətilə tədbir iştirakçılarını təbrik edən rayon icra hakimiyyətinin başçısı Sevindik Hətəmov xalqımızın zəngin milli-mənəvi dəyərləri içərisində ana dilimizin özünəməxsus yeri olduğunu vurğulamış, vaxtilə Ulu Öndər Heydər Əliyevin. sonralar isə onun ən layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin dilimizin inkişafı ilə bağlı müxtəlif fərman və sərəncamlar imzaladıqlarını, bu istiqamətdə ən zəruri tədbirləri həyata keçirdiklərini diqqətə çatdırmışdır.

Çıxış edənlər filologiya elmləri doktoru, professor, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Azərbaycan dili kafedrasının müdiri Rüstəm Kamal, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət pedaqoji Universitetinin tədris departamentinin direktor müavini Ənvər İmanov, Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) Baş katibinin köməkçisi Bəxtiyar Manafov, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin səhnə danışığı kafedrasının dosenti Nadir Hüseynov, rayon ağsaqqallar şurasının sədri Beydulla İmanov, rayon ziyalılar birliyinin sədri Allahverdi Piriyev, rayon "Qələbə" qəzetinin əməkdaşı, şair-jurnalist Əzizağa Məmmədli, 4 saylı tam orta məktəbin direktoru Gülər Quliyeva, 2 saylı tam orta məktəbin müəllimi Günel Orucova zamanın ayrı-ayrı dönəmlərində mütərəqqi ziyalılarımızın həyata keçirmək istədikləri əlifba islahatının müxtəlif maneələr üzündən baş tutmadığını, lakin 1929-cu ildə Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifbaya keçidin mümkün olduğunu qeyd etmişlər. Bildirmişlər ki, SSRİ-də və xarici ölkələrdə yaşayan türkdilli xalqlar arasında mədəni əlaqələrin güclənəcəyindən qorxuya düşən sovet hökuməti bunun qarşısını almaq məqsədilə 1940-cı il yanvarın 1-də kiril qrafikalı əlifbanın tətbiqi ilə bağlı qərar qəbul etmişdir. Lakin 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyinə nail olduqdan sonra əlifba islahatı aparmaq üçün əlverişli şərait yaranmışdır. Ulu Öndər Heydər Əliyev 2001-ci il avqustun 9-da "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü"nün təsis edilməsi ilə bağlı fərman imzalamışdır. Bu fərmana əsasən hər il "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" ölkəmizdə böyük təntənə ilə qeyd olunur.

Tədbirə yekun vuran rayon icra hakimiyyətinin başçısı daim ana dilimizin keşiyində dayanmağın, onu yad təsirlərdən qorumağın hər birimizin müqəddəs borcu olduğunu bildirmişdir.

Azərbaycan - Türkiyə qardaşlığı sarsılmazdır

Zamanın müxtəlif dönəmlərində həm sevincli, fərəhli, həm də ağrılı-acılı günlərdə həmişə bir-birinin yanında olmuş, istənilən məsələdə bir-birinə dəstək vermişlər. Bu məqamda türk dünyasının iki dahi şəxsiyyəti, böyük dövlət və siyasi xadimləri Mustafa Kamal Atatürklə Heydər Əliyevin müdrikcəsinə dedikləri "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" və "Bir millət, iki dövlət" kəlamları bu gün həm Türkiyədə, həm də Azərbaycanda hər bir kəsin dilində zərb-məsəl kimi işlədilir. Azərbaycanla Türkiyənin əsrlərə söykənən dostluğunu, qardaşlığını bu qədər çılpaqlığı ilə ifadə edən söz tapmaq, fikir söyləmək qeyri-mümkündür.

"Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı bu gün ən yüksək zirvədədir və bütün məsələlərdə biz daim bir-birimizin yanındayıq. dım göstərmək çağırışına dəstək göstərən ölkələr arasında qardaş Azərbaycan, Rusiya, Ukrayna, Xorvatiya və İspaniya vardır. Yardım göstərmək istəyənlərin siyahısında Avropa İttifaqı yoxdur. Fransa və Yunanıstan isə yardım göstərməkdən , ümumiyyətlə, imtina etmişlər. İstər-istəməz, "dostu xoş gündə yox, yaman gündə tanıyarlar" deyimi yada düşür. Göründüyü kimi, dünyada ikili standartların mövcudluğu yenə də öz qüvvəsində qalır. Başqasının əzablarına, ağrı-acısına, ağrılarına bu səviyyədə laqeydlik, biganəlik insani cəhətdən də bəyənilən deyil. Digər tərəfdən isə dünyanın bu biganəliyi, laqeydliyi bizi o qədər də təəccübləndirmir. Hərbi əməliyyatların dayandırılması ilə bağlı saziş bağlandıqdan sonra Azərbaycanın humanistlik göstərərək onlara verdiyi möhlət müddə-

İkinci Qarabağ müharibəsi bunu bir daha bütün dünyaya göstərdi ki, Türkiyə-Azərbaycan bir yerdədirlər və əziz qardaşımın, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın dəstəyi ilk saatlardan bizi ruhlandırdı. Çünki müharibənin ilk saatlarından başlayaraq Türkiyə və onun Cümhurbaşqanı bizə mənəvi və siyasi dəstək vermişdir. Bu mənəvi və siyasi dəstək müharibənin son gününə qədər göstərildi",-deyə ölkə Prezidenti İlham Əliyev söyləmişdir.

Türkiyədə baş verən dəhşətli meşə yanğınları zamanı Azərbaycan-Türkiyə qardaşlığının təsadüfi xarakter daşımadığı, bunun heç vaxt qurumayacaq dərin kökləri və əbədi olduğu bir daha sübut olundu. Möhtərəm Prezidentimizin bu hadisəyə dərhal reaksiya verərək onun tapşırığı ilə qardaş ölkəyə Fövqəladə Hallar Nazirliyinin ən təcrübəli yanğınsöndürən əməkdaşlarının olduğu dörd qrupun göndərilməsi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəsmi İnstaqram səhifəsində paylaşım edərək Türkiyədə baş verən yanğınlar nəticəsində həlak olanların doğmalarına və yaxınlarına başsağlığı verməsi, Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləməsi bir daha çətin və dar günlərdə bu qardaş xalqların həmişə bir-birinə arxa-dayaq olduğunu təsdiq edir.

Qeyd etmək lazımdır ki, Türkiyə hakimiyyətinin dünya ictimaiyyətini on minlərlə hektar ərazini məhv edib sıradan çıxaran dəhşətli yanğınlara qarşı mübarizədə onlara yardım göstərməsindən istifadə edən erməni vandalları Kəlbəcərdə meşələri qırmağa, evləri yandırmağa başladılar. Uzun illər ərzində bəzi bizə dost ölkələr istisna olmaqla, dünya ictimaiyyəti erməni faşistlərinin gözəl, füsunkar Qarabağımızın təbii ehtiyatlarını talan etməsini, meşələri qırmasını, cəbhəyanı bölgələrimizi dəfələrlə atəşə tutmasını sükutla müşahidə etməkdə idi. Lakin müdrik xalqımızın belə ibrətamiz məsəlləri də var:"Yaman günün ömrü az olar", "Su gələn arxa bir də gələr".

Tarixin ən ağır, çətin sınaqlarından həmişə alnıaçıq, üzüağ, mətanətlə çıxan yenilməz Türkiyə bu sınaqdan da şərəflə çıxacaq, nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirəcəkdir.

15 il Ulu Öndər Heydər Əliyev irsinin təbliği sahəsində

Salyan rayon Heydər Əliyev Mərkəzində Prezident İlham Əliyevin sərəncamına əsasən "Nizami Gəncəvi ili" nə həsr olunmuş rəsm sərgisi, eyni zamanda Salyan rayon Heydər Əliyev Mərkəzinin yaranmasının 15 illiyi münasibətilə tədbir keçirilmişdir.

Tədbirdə rayon icra hakimiyyəti başçısı Sevindik Hətəmov, Milli Məclisin deputatı Jalə xanım Əhmədova, Biləsuvar Regional Mədəniyyət İdarəsinin rəisi Əlisultan Sadıxov və o cümlədən rayonun idarə, müəssisə, təşkilatlarının rəhbərləri, ağsaqqallar, ziyalılar, ictimaiyyət nümayəndələri, gənclər iştirak etmişlər.

Tədbir iştirakçıları əvvəlcə Heydər Əliyev Mərkəzinin 15 illik fəaliyyətini əks etdirən video-çarxa tamaşa etmişlər. Sonra mərkəzin geniş zalında heykəltaraş Rauf İbrahimovun sərgilənmiş ağac üzərində oyma işlərinə baxmışlar. Nizami Gəncəvinin 850 illiyinə həsr edilmiş "Sirlər xəzinəsi"ndən eskizlərlə əhatələnmiş böyük şairin büstü tamaşaçılarda böyük maraq doğurmuşdur. Rəssam Ərkinaz Salmanzadənin və tələbələrinin əl işləri diqqət çəkmişdir. Dahi Nizaminin əsərlərinə çəkilmiş illüstrasiyalar sərgiyə tamaşa edənlərdə canlı fikir mübadiləsi yaratmışdır.

Sonda mərkəzin direktoru və əməkdaşları səmərəli fəaliyyətlərinə görə Salyan Rayon İcra Hakimiyyətinin və Biləsuvar Regional Mədəniyyət İdarəsinin fəxri fərmanları ilə təltif olunmuşlar.

Şəhidlərimizin ailə üzvləri və qazilərimizin iş probleminin həllinə dəstək verməliyik

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən başladılmış "Məşğulluq marafonu" çərçivəsində təqdim edilən vakansiyalar üzrə Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin və qazilərin işlə təminatı prosesi uğurla davam edir. Həmin vakansiyalar üzrə artıq 400-ə yaxın şəhid ailəsi üzvü və qazi işlə təmin olunub. Onlardan 300-ə yaxını qazi, digərləri şəhid ailəsi üzvləridir.

Vətən müharibəsində torpaqlarımızın azadlığı və ölkəmizin suverenliyi uğrunda canını fəda etmiş qəhrəman şəhidlərimizin ailə üzvləri və qazilərin məşğulluğuna dəstək məqsədi daşıyan bu marafonda iştirak edən işəgötürənlərin sayı da gündən-günə artmaqdadır. Qürurvericidir ki, istər dövlət, istərsə də özəl sektorda fəaliyyət göstərən hər bir işəgötürən igidlərimizin işlə təminatına öz dəstəyini verməkdədir. Artıq işəgötürənlərin sayı 382-ə, müvafiq e-sistemə daxil edilən vakansiyaların sayı isə 1672-yə çatıb.

Dəyərli həmvətənlərim,

İşəgötürənlərin sayının 3 rəqəmli deyil, 4, 5 rəqəmli olacağına inanır, ölkəmizdə fəaliyyət göstərən holdinqləri, böyüklü- kiçikli bütün müəssisə və şirkətləri, fabrik və zavodları "Məşğulluq marafonu"na qoşulmağa, Azərbaycanın qəhrəmanlıq salnaməsinə öz adlarını qızıl hərflərlə yazmış igidlərimizin məşğulluğuna dəstək verməyə çağırıram. Çünki Vətən müharibəsi günlərində bizim onlara ehtiyacımız vardı, bu gün isə onların bizlərə ehtiyacı var. Gəlin bunu unutmayaq!

Zəfər qazandığımız İkinci Qarabağ müharibəsində Azərbaycan xalqı öz birliyini və gücünü bütün dünyaya nümayiş etdirdi, o Böyük Qələbə naminə uşağından ağsaqqalına kimi hər kəs Müzəffər Ali Baş Komandanın, Rəşadətli Azərbaycan Ordusunun yanında oldu. Bugünkü gün isə biz milli birliyimizi və həmrəylimizi o Möhtəşəm Qələbəni bizə yaşatmış qəhrəmanlarımız üçün nümayiş etdirməli, şəhidlərimizin ailə üzvlərinin və qazilərimizin iş problemlərinin həllinə dəstək verməliyik.

Bu, bizim hər birimizin ən müqəddəs borcudur!

P.S. Şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qəhrəmanlarımız layihə çərçivəsində işlə təmin olunmaq üçün ***https://dma.gov.az/layiheler/mesgulluq***-marafonu linkinə daxil olaraq özləri haqqında məlumatları qeyd etməklə müraciət edə bilərlər.

Jalə Əhmədova,
Milli Məclisin üzvü.

Azərbaycan-Türkiyə

Bir əzəmət, bir qüdrətdir,
Bir şərəfdir, bir qeyrətdir,
İki dövlət, bir millətdir
Azərbaycan-Türkiyə!

Bir fərəhdir, bir kədərdir,
Bir gecədir, bir səhərdir,
Bir gülüşdür, bir qəhərdir
Azərbaycan-Türkiyə!

Yanır Günəş tək, sönməzdir,
Durub zirvədə, enməzdir,
Sarsılmazdır, yenilməzdir
Azərbaycan-Türkiyə!

Hiyləgər gözləri dəlir,
Təmiz niyyəti bəllidir,
Gör nə zamandır yol gəlir
Azərbaycan-Türkiyə!

Daim azad, hürr olacaq,
Ucaldıqca ucalacaq,
Bu qardaşlıq həmrəyliyi
Düşmənlərin gözlərinə
Bir ox olub sancılacaq.

Atatürklə Heydərimin,
Ərdoğanla İlhamımın
Zəkasından nur alacaq,
Nurlandıqca var olacaq
Azərbaycan-Türkiyə!

Əzizağa Məmmədli.

Baş infeksionist: Azərbaycanda koronavirusun növbəti alovlanma dövrü başlayıb

Artıq bir həftədən çoxdur ki, ölkəmizdə koronavirusa yoluxma hallarında bu cür sürətli mənfi dinamika izlənməkdədir. Əgər bir müddət əvvəl rəqəmlər 200-dən artıq idisə, qısa müddət ərzində on dəfədən çox artıb. Ətrafımızda olan digər ölkələrə diqqət etsək, görərik ki, həmin proses onlarda bizdən də daha əvvəl başlayıb və epidemioloji vəziyyət ölkəmizdəkindən daha pisdir. Lakin son günlərdəki artım onu deməyə əsas verir ki, Azərbaycanda da xəstəliyin növbəti alovlanma dövrü başlayıb. Bir müddətdir ki, bununla bağlı həyəcan təbilini çalırıq və əhalinin həmin infeksiya ilə necə mübarizə aparması, o cümlədən vaksinasiyanın əhəmiyyəti haqqında maarifləndirmə işini çoxaltmağa çalışırıq.

AZƏRTAC xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov deyib.

"Son dövrlər qəbul edilən qərarlar, aparılan təbliğat-təşviqat işlərinin nəticəsidir ki, gündəlik peyvənd olunmaq üçün müraciət edənlərin sayı kifayət qədərdir. İlk günlərdə müraciət edənlərin sayı xeyli az idi. Hazırda bu rəqəm 60 minin ətrafında dəyişir. Bu da tam arzuolunan deyil. Dövlətin imkanı var ki, hər gün 100 min civarında vətəndaşın vaksinasiyasını həyata keçirsin. Aparılan kompleks tədbirlər nəticəsində vaksinə olan inanclar artıb. Vətəndaşlar daha kütləvi şəkildə müraciət edirlər. Lakin yenə də passiv qruplar var. Bizim də hədəfimiz onlardır. İstəyirik həmin şəxslərə vaksinin effektivliyinə və təhlükəsizliyinə dair məlumatları çatdıraq ki, onlar da vaxtında düzgün qərar qəbul etsinlər", - deyə T.Eyvazov qeyd edib.

Təsərrüfat xəbərləri

Bu il tarlalardan bol məhsul gözlənilir

Salyanda əkin işlərini optimal sürətdə aparan fermerlərin çəkdikləri zəhmət nəticəsiz qalmayıb. Tarlalarda normal çıxış alınıb və rayonda su probleminin

olmasına baxmayaraq, pambıq sahələri olduqca sağlamdır. Fermerlər bu il pambıq sahələrini bir qədər də artırıblar. Dövlətin bu sahəyə olan diqqəti pambıq becərənləri hərəkətə gətirib.

Fermer Elgün Qabiloğlunun sözlərinə görə o, keçən il 30 hektarda pambıq əkib. Bu il isə sahəni artıraraq 33 hektara çatdırıb. Su qıtlığı olsa da, pambıq bitkiləri normal boy atıb.

Ötən il 30 hektar sahədən 40-45 sentner məhsul götürən fermer bu il bu rəqəmi 50 sentnerə çatdırmaq niyyətindədir.

Keçən il məhsul baxımından Salyan üçün də uğurlu il olub. Belə ki, ötən təsərrüfat ilində Salyan rayonunda 5010 hektar sahədə pambıq əkini aparılıb. Sahələrdən 20425 ton məhsul toplanıb. Məhz bu göstəricilərə görə, 21 pambıqçılıq rayonu arasında Salyan birinci yerdə qərar tutub.

Salyan DAİM-in böyük məsləhətçisi Şəhriyar İsgəndərovun sözlərinə görə, bu il 615 sahədə pambıq əkini aparılıb. Aqrotexniki qulluq uğurla davam etdirilir.

Salyanlı fermerlər əkin sahələrini genişləndirməklə yanaşı, tarlalardan daha yüksək məhsul götürmək üçün növbəli əkin sisteminə üstünlük verirlər. Rayon fermerləri 4 pambıq şirkəti ilə müqavilə bağlayıb. Gələcəkdə məhsulun yığılması və məntəqələrə təhvil verilməsində heç bir problem yaşanmayacaq.

Qarğıdalı təkcə yemçiliyin yox, həm də heyvandarlığın inkişafı deməkdir

Ötən il Salyan rayonunda 876 hektar sahədə təkrar qarğıdalı əkini aparılıb. Bu sahələrdən 500 hektarı dənlik, 376 hektarı isə silosluq qarğıdalı götürülüb. Fermerlər bol məhsul götürdükləri üçün bu il əkin sahələrini daha da artırıblar.

Salyanda qarğıdalı bitkisi rayonun əsasən Kürqaraqaşlı kəndində aparılır. Kənd sakini fermer Salman Salmanov uzun illərdir bu əkinlə məşğuldur. Bir neçə baş heyvan saxlayan fermer silosluq qarğıdalı əkini ilə həm şəxsi, həm də başqa təsərrüfat sahiblərinə yem bazasının yaradılmasında kömək göstərir.

Fermer Əli Novruzovun da qarğıdalı əkininə marağı böyükdür. O, bu il hibrid toxum - "Krasnodar 392" sortundan olan qarğıdalı əkib. Ötən il 2 hektar sahədə təkrar qarğıdalı əkən fermer qeyd edib ki, bu təsərrüfat təkcə yemçiliyin yox, həm də heyvandarlığın inkişafı deməkdir.

Hələlik xüsusi texnika olmadığından Salyanda qarğıdalı əkini pambıq texnikası ilə aparılır. Fermerləri narahat edən məsələ isə həmişə olduğu kimi suvarma suyudur. Müəyyən çətinliklərə baxmayaraq, sahələrə suvarma suyu verilir. Fermerlər inanırlar ki, suvarma suyu ilə bağlı qarşılaşdıqları çətinliklər tezliklə həll olunacaq və sahədən bol məhsul götürüləcək.

Qarpız məhsulu boldur

Qarpız əkini əsasən Salyanın Xalac, Marışlı, Noxudlu, Kürqaraqaşlı və Qızılağac kəndlərində aparılıb. Altı ildir qarpız əkini ilə məşğul olan fermer Balabəy Əhədov ötən il bir hektarda qarpız əkib. Bol məhsul götürdüyündən bu il əkin sahəsini bir qədər də artırıb. Fermer deyir ki, problem təkcə satışla bağlıdır.

-Altı ildir bu sahə ilə məşğulam,-deyə o, bildirir. - 2 hektar sahədə qarpız əkmişəm. Məhsul da boldur. Hektardan 50 tondan çox məhsul gözləyirəm. Amma satışımız zəifdir. Qarpızın hər kiloqramını 14-15 qəpiyə satırıq. Bu da maya dəyərini ödəmir.

Bu il salyanlı fermerlər qarpızın xüsusi sortlarına müraciət ediblər. Burada qarpızın əsasən Hollandiyadan gətirilən "Karistan" və İran sortu olan "İbrit"in əkininə maraq daha çoxdur. Bu sortlar rayonun iqlimi üçün olduqca xarakterikdir.

Qeyd edək ki, ötən il Salyanda ümumilikdə 1007 hektar sahədə qarpız əkini

aparılıb. Bu sahələrdə orta məhsuldarlıq 161 sentner olub ki, bu da 16,600 ton qarpız məhsulu deməkdir.

Salyan DAİM-in bitkiçilik sektorunun müdiri Rişad Əsgərlinin bildirdiyinə görə, bu il fermerlər tərəfindən rayonda 932 hektarda qarpız əkilib. Hazırda sahələrdən 2 min tona yaxın məhsul əldə olunub. Məhsul yığımı hələ də davam etdirilir.

Mütəxəssislərin fikrincə, sahələrə düzgün aqrotexniki qaydada qulluq edilərsə, hər hektardan 80-100 ton məhsul götürmək mümkündür. Bu da təbii ki, fermerlərin sosial rifahının yüksəlməsində mühüm rol oynayar.

Təyyar Nəsirli.

Biz birlikdə güclüyük

Vaksinasiya ümumxalq hərəkatına çevrilməzsə...

Koronavirusun mutasiyalara uğraması nəticəsində onun "alfa", "beta", "qamma" və "delta" stammları meydana gəlmişdir. Mütəxəssislər virusların davamlı olaraq mutasiya etməsini təbii hal kimi dəyərləndirirlər və qeyd edirlər ki, mutasiyaların əksəriyyəti ziyansız olsa da, bəziləri, xüsusilə "delta" ştammı daha yoluxucudur. Aparılan araşdırmalar nəticəsində məlum olub ki, "delta" ştammına yoluxanlar arasında daha çox baş, boğaz ağrısı və burun axması kimi əlamətlər müşahidə olunur. Lakin bununla yanaşı, gənc xəstələrdə şiddətli soyuqdəymə hiss olunur. Belə olan halda insanlar mövsümi soyuqdəymə olduğunu düşünürlər və başqaları ilə əlaqə saxlayırlar. Bu zaman xəstəliyi daha altı nəfərə ötürə bilirlər. Bu hal, şübhəsiz, yoluxmaların artmasına öz təsirini göstərir.

Nüfuzlu tibb mütəxəssislərinin, tanınmış elm adamlarının dəyişməz yekdil fikri ondan ibarətdir ki, bu qorxunc bəladan qurtulmağın ən əlverişli yolu yalnız vaksinasiyadır. Peyvəndləmə nəticəsində dünya əhalisinin koronavirusa qarşı kütləvi şəkildə immunitet qazanması ilə bu virusdan yaxa qurtarmaq mümkündür.

Onu da qeyd edək ki, dünya ölkələri arasında Azərbaycan hal-hazırda vaksinləri vaxtında əldə edən və əhalinin kütləvi vaksinasiyasına başlayan ilk yerlərdən birini tutur.

Koronavirusa qarşı mübarizədə əldə olunan nəticələri müqayisə etsək, görərik ki, respublikamızda vəziyyət dünyanın bir çox ölkələri ilə müqayisədə daha yaxşıdır.

Ölkəmizdə yanvar ayının 18-dən tibb işçilərinin vaksinasiyası ilə başlayan bu proses müvəffəqiyyətlə davam etdirilir. Artıq 5 milyondan artıq doza peyvənd vurulmuşdur ki, tibb mütəxəssislərinin fikrincə, bu peyvəndlərin heç bir təhlükəsi yoxdur.

Xatırlatmaq istəyirik ki, Azərbaycanda virusa qarşı 4 vaksindən istifadə olunur. Bunlar SİNOVAC, Astra-Zeneca/Vaxzevria, Biontech/Pfizer və Sputnik vaksinləridir.

Lakin son zamanlar koronavirusa yoluxanların sayında artımın baş verməsi narahatlıq doğurmaya bilməz. Ölkədə vaksinasiya olunanların sayının günbəgün artması isə gələcəyə nikbinliklə baxmağa təkan verir. Danılmaz həqiqətdir ki, peyvənd olunanların artım sürəti nə qədər yüksək olarsa, pandemiyadan yaxamızı bir o qədər tez qurtara bilərik.

Dünyanın adlı-sanlı tibb mütəxəssisləri, görkəmli elm adamları aparılan tədqiqatların, araşdırmaların, təhlillərin nəticəsi olaraq belə qənaətə gəlmişlər ki, koronavirusa qarşı ən təsirli vasitə peyvəndləmədir.

Rayonumuzda da "COVİD-19"-la mübarizədə qələbə qazanmaq üçün ən vacib və effektli tədbirlərdən biri olan maarifləndirici tədbirlər yüksək səviyyədə davam etdirilir. Qapalı obyektlərdə həm işçilərə, hə də sakinlərə tibbi maskadan istifadənin zəruriliyi, sosial məsafənin gözlənilməsi, sanitariya-gigiyena qaydalarına hamılıqla əməl olunmasının, ən başlıcası isə peyvəndləməyə məsuliyyətlə yanaşmağın xeyli müddətdir ki, bütün dünyanın rahatlığını pozan qorxunc bəladan qurtulmaqda xüsusi önəm kəsb etdiyi izah olunur.

Qeyd edək ki, Rayon Mərkəzi Xəstəxanasında və kənd tibb məntəqələrində vaksinasiya uğurla davam etdirilir.

Yeni Azərbaycan Partiyası "Özümüzü, ailəmizi və sevdiklərimizi qorumaq üçün peyvənd olunaq" çağırışı etmişdir. Bu çağırışın məğzi, mahiyyəti ondan ibarətdir ki, hər bir vətəndaş peyvənd olunmaqla təkcə yaxınlarını, doğmalarını deyil, ətrafımızda risk altında, müxtəlif xəstəlikləri olan insanların da COVİD-19-a yoluxmalarının qarşısının alınmasına öz töhfəsini verir.

Hər birimiz peyvənd olunmağa tələsək ki, koronavirusa qarşı mübarizədə sayımız daha çox olsun. Bir anlığa düşünək ki, dünyamızın aqibəti səndən, məndən, ondan, bir sözlə, hamımızdan asılıdır. Yalnız və yalnız elliklə bu virusla "döyüş"dən qalib çıxa bilərik.

Salyanda koronavirusa qarşı dezinfeksiyaedici tədbirlər

Son zamanlar ölkə əhalisi arasında COVID-19 infeksiyasına yoluxanların ümumi sayı, xəstələrin sağalma dinamikası, peyvəndləmə kampaniyasının kütləviliyi, ümumilikdə sanitar-epidemioloji vəziyyət nəzərə alınaraq, xüsusi karantin rejimi çərçivəsində tətbiq edilən bəzi məhdudiyyətlər aradan qaldırılıb.

Bununla əlaqədar rayonumuzda geniş dezinfeksiya tədbirləri həyata keçirilir. Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin sanitar işçiləri tərəfindən əhalinin sağlamlığının qorunması məqsədilə şəhərin küçə və prospektləri xüsusi texnikaların köməyi ilə dezinfeksiyaedici maddələrlə yuyulub, yaşayış binalarının ətrafında, giriş bloklarında, pilləkən qəfəslərində, ticarət və xidmət obyektlərində, sərnişindaşıma xidməti göstərən nəqliyyat vasitələrində dezinfeksiyaedici maddələrlə sanitar-gigiyenik işlər aparılıb.

Şəhər ərazisində sanitar-epidemioloji vəziyyət Salyan Rayon İcra Hakimiyyəti başçısı yanında yaradılmış qərargah tərəfindən ciddi nəzarət altında saxlanılır, mütəmadi təxirəsalınmaz profilaktik tədbirlər görülür. İnfeksiyanın şəhər ərazisində yayılmasının qarşısının alınması məqsədilə şəhərin prospekt və küçələrində, məhəllədaxili yollarda, həmçinin yaşayış binalarında, idarə və müəssisələrdə davamlı olaraq dezinfeksiya işləri görülür. Onu da qeyd edək ki, Salyan Rayon İcra Hakimiyyəti tərəfindən yaradılmış monitorinq qrupları əhalinin sıx toplaşdığı məkanlarda insanlarla maarifləndirici söhbətləri gündəlik olaraq davam etdirirlər.

Şəhər sakinləri və ictimai iaşə obyektlərinin sahibləri ilə maarifləndirici söhbətlər zamanı vətəndaşlara tibbi maskadan, gigiyenik vasitələrdən istifadə etmək və ara məsafəsi saxlamağın vacibliyi bir daha qeyd olunur.

Malyariya xəstəliyinə son

Malyariya xəstəliyi ta qədim zamanlardan, xüsusilə Afrikada geniş yayılmış xəstəliklərdən biri olmuşdur. Bu xəstəlik ağır gedişə malik parazitar xəstəlik olub, bir şəxsdən digərinə Anopheles cinsindən olan ağcaqanadlar vasitəsilə yoluxurdu. Azərbaycanda, o cümlədən Salyanda da malyariya xəstəliyinə yoluxmuş insanlar olmuşdur. Belə ki, 2008-2011-ci illərdə rayonumuzda bu xəstəliyə düçar olmuş on bir xəstə GEM -in parazitoloji laboratoriyasında qeydiyyata alınmışdır. Lakin xəstəliyin sürətlə azalması əhali arasında mövsümarası kimyəvi profilaktikanın yüksək effektivliyini göstərir. Müntəzəm surətdə aparılan profilaktiki tədbirlərin nəticəsidir ki, 2012-ci ildən etibarən heç bir parazit aşkarlanmamışdır. Bütün bu illər ərzində yoluxma ehtimalının olmamasının səbəbi rayonda yaşayış evlərinin ərazisində su durğunlarının yaradılmasına yol verilməməsi, ətrafda daim dezinfeksiya işlərinin aparılması, mənzillərin qapı-pəncərələrinin torla tutularaq ağcaqanadlardan qorunmasıdır.

Azərbaycan Respublikasında 2016-2020-ci illər üçün malyariyanın elminasiyası üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən Milli Strategiya təsdiq olunmuşdur. Bu Milli Strategiyanın məqsədi 2020-ci ilədək malyariya ilə yerli yoluxmanın kəsilməsi idi. Qeyd edək ki, hər il profilaktik tədbirlər çərçivəsində yaşayış və qeyri yaşayış binalarında, o cümlədən vətəndaşların ərizələrinə əsasən tamamlayıcı dezinfeksiyaedici tədbirlər həyata keçirilir. Bu tədbirlərdə təlimatçı və dezinfektorlar iştirak edirlər. Dezinfeksiyaedici dərman preparatlarından alfosipemetrin, didifos, deltametrin xloramin xlorlu əhəngdən istifadə edilmişdir. Malyariya xəstəliyinin törədicilərinə qarşı vaxtaşırı dezinfeksiya işləri aparılmışdır. 2020-ci ildə dezinfeksiya işləri aparılan evlərin ümumi sayı 980 olmuşdur. Bunların 592-si yaşayış evləri, 388-i qeyri-yaşayış obyektləri olmaqla, ümumilikdə, 23200 kvadratmetr ərazini əhatə etmişdir.

Hal-hazırda da rayon sakinləri ərizələrlə müraciət etdikdə müvafiq dezinfeksiya işləri həyata keçirilir.

Malyariya ilə mübarizədə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş metodiki vəsaitə əsasən sağlamlığın mühafizəsinə yönəldilmiş dövlət proqramları çərçivəsində sanitariya-maarifləndirmə işinin müvəffəqiyyətlə həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Malyariyanın laborator müayinə və müalicəsi dövlətimiz tərəfindən pulsuz aparılmlşdır.

Müvafiq dezinfeksiya işləri bundan sonra da Salyan Rayon GEM-i tərəfindən müntəzəm surətdə aparılacaqdır. Onu da qeyd etməliyik ki, malyariya ilə mübarizə və onun qarşısının alınması kimi çox vacib işdə hər bir vətəndaş fəal iştirak etməlidir.

Validə Həsənova
Salyan Rayon GEM-in
parazitoloji bölməsinin müdiri.

Vətən sənə oğul dedi

Şəhidin cənnətdəki ilk doğum günü

Torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Sarvan kəndinin yetirməsi Tacəddin Şahəddin oğlu Əzizlinin cənnətdəki ilk doğum günü elə doğulduğu kənddə qeyd edilib.

Anım günündə şəhidin doğmaları, Salyan Rayon İcra Hakimiyyətinin rəsmiləri, hərbçilər, şəhid ailələri və ictimaiyyətin nümayəndələri iştirak ediblər. Şəhid Tacəddin Əzizlinin qısa, lakin şərəfli ömür yoluna işıq tutulub. Bildirilib ki, Tacəddin Əzizli Bakıda yaşasa da, 1994-cü il avqustun 7-də Salyan rayonunun

Sarvan kəndində doğulub. Bir neçə il doğulduğu kənd məktəbində oxuyub. Ailəsi Bakıda yaşadığı üçün o da təhsilini Səbayel rayonundakı 49 saylı tam orta məktəb-liseydə davam etdirib. Öz biliyi, ağılı, zəkası ilə məktəbdə həmyaşıdlarına nümunə olub. Ali təhsil almaq, vətənə, xalqa fayda vermək, ona layiqli övladı olmağı qarşısına məqsəd qoymuşdu. Elə atasından xeyir-dua alan Tacəddin 2012-ci ildə sənədlərini Xarkov Dövlət Ticarət və Qida Sənayesi İnstitutuna verib. Bütün imtahanlardan uğurla keçərək tələbə adını qazanıb. İngilis, rus dillərini sərbəst bilən Tacəddin 5 illik ali təhsildən sonra doğma vətənə qayıdıb. Öz övladlıq borcunu yerinə yetirmək üçün həqiqi hərbi xidmətə yola düşüb. Bir il Füzuli bölgəsindəki "N" saylı hərbi hissədə xidməti borcunu layiqincə yerinə yetirib.

2020-ci ilin iyul ayından "Makro-2000" türk şirkətində çalışmağa başlayıb. Arzuları, xəyalları sonsuz olub. Vətən müharibəsinin başlanmasına 6 gün qalmış Tacəddin Əzizli də həmyaşıdları kimi səfərbərliyə alınıb.

Vətən müharibəsində əsl qəhrəmanlıq göstərib. Cəbrayıl-Hadrut istiqamətində gedən qanlı döyüşlərdə silahdaşları ilə onlarla erməni diğasını gəbərdib, xeyli sayda zirehli texnikasını məhv edib. Noyabrın 9-da Şuşa uğrunda gedən döyüşlərdə 26 yaşında ikən şəhadətə yüksəlib. Doğulduğu kənd qəbiristanlığında torpağa tapşırılıb. Ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Şəhidin kənd qəbristanlığındakı məzarı ziyarət olunub, üzərinə tər qərənfillər düzülüb, ruhuna dualar oxunub. Sonra tədbir kənd şəhidlərinin xatirəsinə ucaldılmış abidənin qarşısında davam etdirilib. Sarvan kənd tam orta məktəbin şagirdləri tərəfindən qəhrəmanlığa və şəhidlərə həsr olunmuş şeirlər söylənilib.

Sonda Tacəddin Əzizlinin valideynləri tədbir iştirakçılarına öz minnətdarlığını bidiriblər.

Şəhid Elməddin Aqil oğlu Qasımovun onsuz keçirilən ilk doğum günü

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Elməddin Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı qəhrəmancasına savaşıb. Elməddin Qasımov 27 oktyabr 2020-ci ildə Füzuli döyüşləri zamanı şəhid olub.

Avqustun 9-da şəhidin anadan olduğu Təzəkənd kəndində rayon rəhbərliyinin, təhsil aldığı məktəbin müəllimlərinin, kənd ictimaiyyətinin, qohumlarının və yaxınlarının iştirakı ilə cənnətdəki ilk doğum günü qeyd edilib. Şəhidin məzarı ziyarət edilib, ruhuna dualar oxu-

nub. Məzarı üstünə tər gül dəstələri düzülüb. Onsuz keçirilən doğum günündə bildirilib ki, 22 yaşlı Elməddin vətənpərvər, yurdsevər bir gənc olub. Qısa, lakin mənalı həyat və döyüş yolundan xatirələr söylənib. O da qeyd edilib ki, Elməddinin şəhid olmasından az sonra atası Aqil kişi də bu dərdə tab gətirməyərək dünyasını dəyişib. Elməddinin kiçik qardaşı Amil isə bir aydır ki, əsgəri xidmətə yola salınıb.

Övladına göstərilən diqqət və ehtirama görə şəhidin anası Qızılgül xanım, şəhidin əmisi Asif Qasımov ölkə və rayon rəhbərliyinə, öz el-obaya dərin təşəkkürlərini çatdırıblar.

Qeyd edək ki, Şəhid Elməddin Qasımov Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və"İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

"Həm kədərim, həm qürurumdu Əli"

Torpaqlarımızın azadlığı uğrunda gedən haqq savaşında şəhid olmuş Əli Rahil oğlu Tağıyev 29 avqust 2001-ci ildə Salyan şəhərində dünyaya göz açıb. 2019-cu ildə Salyan şəhər 1 saylı humanitar fənlər təmayüllü məktəb-liseyi bitirdikdən sonra elə həmin il ordu sıralarına çağırılıb. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində döyüşlərə qatılan Əli Çaylı, Talış, Suqovuşan və digər ərazilərimizin düşmən əsarətindən xilas olunmasında igidliyi, şücaəti ilə komandirlərinin diqqətini çəkib. Bu döyüşlərin birində-sentyabrın 30-da qəhrəmanlıqla həlak olaraq şəhidlik məqamına yetişir. Ölkə başçımızın müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", Şuşanın azad olunmasına görə" və "Cəsur əsgər" medalları ilə təltif edilmişdir. Şəhidimizin xatirəsinə hörmət və ehtiram əlaməti olaraq Salyan şəhərindəki küçələrdən biri onun adını daşıyır.

Artıq ikinci dəfədir ki, şəhid

Tağıyev Əli Rahil oğlu barədə yazı hazırlamaq üçün onun yaşadığı mənzilə yollanıram. Yolboyu düşüncələrin, kövrək duyğuların, hisslərin cazibəsindəyəm. Doğrudan da böyük qəhrəmanlıq, igidlikdir şəhidlik! Hələ bu dünyanın sevincini, fərəhini dadmamış, torpaq naminə həyatını qurban vermək heç şübhəsiz vətənpərvərliyin ən uca zirvəsidir. Beləcə, ürəyimlə danışa-danışa gedəcəyim evin həyətinə daxil oluram. Otağa daxil olduqda, əziz şəhidimizin divardan asılmış şəklindən boylanan məğrur, vüqarlı baxışları ilə qarşılaşıram. Yaxınlaşıb bir müddət şəklin önündə dayanıram. O baxışlar sanki dil açıb demək istəyir ki. mən ölməmişəm, şəhid olub Tanrı dərgahına ucalmışam. Nəhayət, düşüncələrdən ayrılıb şəhidin ailə üzvləri ilə bir stol arxasında əyləşirik. Yenidən ciyərparəsi barədə yazı hazırlamaq niyyətilə burada olduğumu bildirirəm. Bu diqqətə görə, minnətdarlığını bildirən Əfsusə xanım söhbətə başlayır:

-Bilirsiniz, hər bir valideyn çox yaxşı bilir ki, övlad itkisi elə bir ağır dərd, qubardır ki, onu ürəkdən qoparıb atmaq qeyri-mümkündür. Ancaq mənə təsəlli verən odur ki, oğlum hamımıza ana olan Vətən uğrunda canından keçib. Komandirləri deyir ki, Əli elə bir igid idi ki, belə mərd oğullar az-az tapılar. Bir neçə yerindən yaralansa da, o, şəhid olana kimi döyüşməkdə davam etdi.

Bacısı Vüsalə xanım kövrələ-kövrələ bildirdi ki, Əli məndən yaşca xeyli kiçik idi. O, demək olar ki, qollarımın üstündə böyüyüb. Bütün dərd-sərini mənə danışardı. Bir-birimizə çox bağlı idik. Onu özümə arxa-dayaq bilirdim.

Zahirən çox səbirli, təmkinli görünən, lal-dinməz söhbətə qulaq asan Rahil kişidən bir neçə kəlmə danışmasını xahiş edirəm:

-Vallah, bilmirəm nə deyim. Ancaq onu bilirəm ki, mənim oğlum elə bir iş üstündə şəhid olub ki, bundan ancaq fəxr etmək olar. Mən də ölüb gedəcəm, başqaları da. Bilmirəm kimi xatırlayacaqlar, kimi xatırlamayacaqlar. Ancaq onu bilirəm ki, Əlini də, digər şəhidlərimizi həmişə xatırlayacaqlar.

Bəli, düz deyirsən, Rahil kişi, Əli də, o biri şəhidlərimiz də, vətənimiz, xalqımız üçün faydalı iş görən həmvətənlərimiz də daim yad ediləcək, yaddaşlardan heç vaxt silinməyəcək. Zamanın istənilən dönəmlərində onlara rəhmət oxunacaq, hər bir soydaşımızın dilindən "Ruhun şad olsun, şəhidim," nidası səslənəcək.

Şəhid ruhunu şadlandıran qələbə

I Qarabağ müharibəsində ölkəmizin ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla şəhid olan həmyerlilərimizdən biri Ramiz Nazim oğlu Qafarov 1953-cü il avqustun 18-də Salyan rayonunun Seyidsadıqlı kəndində dünyaya göz açmışdı. 27 saylı dəmir yolu məktəbini fərqlənmə attestatı ilə bitirdikdən sonra Bakı Dövlət Universitetinin kimya fakültəsinə daxil olmuşdu. Universiteti bitirdikdən sonra təyinatla Cəlilabad rayonuna göndərilmişdi. Burada bir il kimya fənnini tədris etdikdən sonra doğma kəndinə qayıdan Ramiz bir müddət Plastik Kütlə Emalı Zavodunda mühəndis, sonra isə təbiəti mühafizə idarəsində baş müfəttiş işləmişdi.

Ermənistanın ərazilərimizə təcavüzündən bərk hiddətlənən vətənpərvər həmyerlimiz torpaqlarımızın müdafiəsində dayanmağı özünün vətəndaşlıq borcu sayaraq döyüş cəbhəsinə yollanır. Qubadlı, Cəbrayıl, Füzuli, Ağdərə bölgələrində gedən döyüşlərdə fəallığı ilə seçilir. 1994-cü il yanvarın 8-də qəhrəmanlıqla həlak olaraq Tanrı dərgahına ucalır.

Cəsur komandir, baş leytenant Ramiz Qafarovun və Vətən naminə həyatlarını qurban vermiş digər şəhidlərimizin ən böyük arzusu doğma Azərbaycanımızı bütöv görmək idi. Onların bu arzusunu Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuz gerçəkləşdirdi. Özünün möhtəşəm qələbəsi ilə dünya hərb tarixində şanlı səhifələr yazan şanlı ordumuz həm də şəhidlərimizin ruhuna bir rahatlıq, bir dinclik bəxş etdi.

Bu gün biz qalib bir xalqın nümayəndələri olmağımızla fəxr edirik, öyünürük, qürurlanırıq.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Bacın sənə qurban

(Şəhid bacısının dilindən)

Sən idin köməyim, səndin gərəyim,
Sən idin nəfəsim, suyum, çörəyim,
İndi yoxluğuna dözmür ürəyim,
Bacın sənə qurban olsun, a qardaş.

Mən səni arxamda bir dağ bilirdim,
Sən yoxsan, azalmır kədərim, dərdim,
Nədən sənsizlikdən ölə bilmədim?
Bacın sənə qurban olsun, a qardaş.

Kamına yetməmiş köçən qardaşım,
Quş olub göylərə uçan qardaşım,
Yuxuma girərsən haçan qardaşım?
Bacın sənə qurban olsun, a qardaş.

Sən mənim çiynimdə olmalı idin,
Qolunu boynuma salmalı idin,
Toyunu görməmiş səni itirdim,
Bacın sənə qurban olsun, a qardaş.

Səni düşünürəm inan hər yerdə,
Səndən danışıram xeyirdə, şərdə,
İlahi, səbir ver, dözüm bu dərdə,
Bacın sənə qurban olsun, a qardaş.

Əzizağa Məmmədli.

2021-ci il Nizami Gəncəvi ilidir

"Xəmsə"nin üçüncü poeması"Leyli və Məcnun"

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi "Sirlər xəzinəsi", "Xosrov və Şirin"dən sonra "Leyli və Məcnun" poemasını qələmə alaraq insan və zaman, təbiət və cəmiyyət haqqında dərin ictimai və fəlsəfi fikirlərini ifadə etmişdir. Bu poemanı yazmağı ondan sevimli oğlu Məhəmməd də xahiş etmişdir:

Qəlbimdə can kimi əzizim olan,
Məhəmməd Nizami oğlum bu zaman
Bu gözəl mövzuya könül verərək,
Oturdu yanımda o bir kölgətək.
Öpdü ayağımı xeyli mehriban,
Dedi: "Ey göylərə meydan oxuyan,
"Xosrov və Şirin"i yazıb yaratdın.
Leyli-Məcnundan da yarat bir əsər,
Cüt olsun yazdığın qiymətli gövhər.

Nizami Gəncəvi "Leyli və Məcnun" poeması ilə əlaqədar farslar və ərəblər arasında geniş yayılmış rəvayətləri dərindən öyrənməklə bunu dərin idrakının, parlaq zəkasının gücü, qüdrəti ilə möhtəşəm poeziya halına gətirmişdir.

Sözə, sənətə yüksək dəyər verən Axsitanın Nizamidən məhz belə mövzuda əsərin yazılmasını istəməsi onun Nizami Gəncəvinin yaradıcılığı ilə "Leyli və Məcnun" əsəri arasında olan doğmalığı hiss etməsindən irəli gəlir.

Şair "Leyli və Məcnun"un həcmi, yəni onun neçə beytdən ibarət olduğu, hansı müddətə yazıldığı barədə poemada aydın şəkildə məlumat verir:

Dörd min beytdən də çoxdur bu dastan,
Dörd aydan az vaxta yazmışam inan.

Poemanın yazılma tarixini də şair özü bəyan edir:

Əgər tarixini söyləsəm əyan,
Dörd il keçmiş idi beş yüz həştaddan.

Beləliklə məlum olur ki, "Leyli və Məcnun" poeması hicri təqvimi ilə 584-cü, miladi təqvimi ilə isə 1188-ci ildə qələmə alınıb.

Poemada Nizami Gəncəvi yerin, göyün, ümumiyyətlə dünyada mövcud olan hər bir şeyin böyük yaradanın-Allahın hökmü ilə yaradıldığını dahiyanə ustalıqla təsvir edir:

Adının qərarı olmadan əvvəl
Qələm tutmamışdır dünyada bir əl.
Ey bütün varlığın həyat təməli,
Yetməz dərgahına bir insan əl.
Sənin tərifindir "təbarəkallah",
Alqış cəlalına, feyzinə Allah!
Yeddi qız, doqquz taxt qapında sənin
Olmuşdur daima pərdə çəkənin.

Burada oxuculara məlum olsun deyə, qeyd edək ki, Təbarəkallah-Nə gözəl! Nə yaxşı! Nə əcəb! Allah mübarək etsin deməkdir. Bu şeir parçasının sonuncu iki misrasının mənasını açıqlayaq. Yeddi qız -yeddi planetə, doqquz taxt isə doqquz fələyə (göyə) işarədir. Yəni, yeddi planet və doqquz göy həmişə sənin qapında qul kimi pərdə tutur. Qədim astrologiyada göylərin yeddi qat olması iddia olunurdu.

"Leyli və Məcnun" poemasında əsərdəki hadisələrlə bağlı olan iki hekayə də yer almışdır. "İt saxlayan padşah" hekayəsində on il şaha sədaqətlə xidmət edən gəncin sonra şahın əmri ilə quduz və yırtıcı itlərə atılmasını göstərməklə şair dövrün şahlarının zülmkarlığını açıb göstərir. İtlərə atılan gəncə nisbətən daha humanist, yüksək insani keyfiyyətlərə malik olan Məcnunu dəli adlandırıb onu çöllərə salan, nəticədə ölümünə səbəb olan cəmiyyətin padşahlarının daha qəddar, daha vəhşi olduğunu göstərir.

Poemada yüksək sənətkarlıqla təqdim olunan Məcnunun heyvanlara qayğı göstərməsi, ahu və maralı ovçuların torundan xilas edərək onları ölümdən qurtarması təkcə insanlara deyil, həm də Allahın yaratdığı heyvanlara da olan böyük məhəbbəti, insani münasibətidir:

Adət qonağıyam, özün bilirsən.
Ahular bağında götür tələni,
Onları azad et, sevindir məni.
Yazıq heyvanlara nə qəsdin vardır?
Onlar həyat üçün yaranmışlardır.
Gözləri göyçəkdir, baxışları şad,
Onlar da əzəldən yaranmış azad.

Əsərdə əgər Məcnun mühitlə barışmadığını bildirərək çöllərə düşüb, heyvanlar arasında yaşayırsa, Məcnun divanə, dəli adı almaqdan çəkinmirsə, Leyli də İbn Salama həqiqi arvad olmamaqla, eşqinə sədaqətini qorumaqla özünü təsdiq edir. Poemanın ilk səhifələrindən başlamış ölümünə qədər sonsuz bir həsrətlə Məcnunu axtarır, onu görmək, onun şeirlərini eşitmək istəyir. Dərya-dərya qəmli göz yaşları tökən Leylinin daim gözü yollarda, qulağı səsdədir. Dam üstə çıxıb oğrun-oğrun yollara baxması, düşmən tənəsindən qorxub gecələr ahlar çəkməsi, şam kimi yanması, acı-acı ağlaması, tüstüsüz ocaq kimi alovlanması onun məhəbbətinin güclü olmasından xəbər verir. Məcnunla bərabər Leylinin də adı dillərə düşür, bazardan gələn uşaqlar belə, Leyli və Məcnunun məhəbbət qəzəllərini oxuyur, onların şeirlərini bir-birlərinə çatdırırlar.

Məcnun başqa qızla evlənmək təklifini qəbul etmir. Lakin Leyli belə deyil. O özünü o dərəcədə toxdaq, təmkinli aparır ki, başqasını sevdiyini atasanasına demir, onu İbn-Salama ərə verəndə etiraz etmir. Leyli İbn-Salama ərə getməyə ona görə razılıq verir ki, qadın ismətini, adını qoruya bilsin. Qadına münasibət orta əsrlərdə o qədər ciddi, o qədər ağır idi ki, Məcnuna layiq bir qız olmaq üçün də Leylinin əsas çıxış yolu bu idi.

Poemanın "Leylinin məktubunu Məcnunun oxuması" bölməsində bu misralara diqqət yetirək:

Eşqinə sadiqəm, yolunda dustaq,
Dərdinə şərikəm, qəminə ortaq.
Yanına gəlməyim olmadı mümkün,
Başqa şərtlərisə görmüşəm bütün.
Vücudum ayrısa sənin yanından,
Ruhum ayrılmamış yanından bir an.

Poemanı oxuyub başa çatdıqdan sonra belə qənaətə gəlirsən ki, dahi mütəfəkkir şair, filosof Nizami Gəncəvi yaratığı surətlər, təsvir və təhlil etdiyi hadisələr vasitəsilə dövrünün hər bir mənada zəngin mənəviyyatlı insan obrazını, fikir, düşüncə və əxlaq mənzərəsini yaratmışdır.

Onu da qeyd edək ki, dahi şairin "Leyli və Məcnun" poemasını Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Səməd Vurğun yüksək sənətkarlıqla tərcümə etmişdir.

Əzizağa Məmmədli.

Həmyerlimiz "Zəfər marşı"nın müəllifidir

ATV-nin Səhər proqramı artıq xeyli müddətdir ki, "İstedadlısan" rubrikası ilə müasir gənclərin elm, təhsil, mədəniyyət və incəsənət sahəsində əldə etdikləri uğurları tamaşaçılara nümayiş etdirir. Bu rubrikanın növbəti qəhrəmanı isə həmyerlimiz, gənc pianoçu Ceyhun Əzizov olmuşdur.

Oxucularımız onu çox yaxşı tanıyırlar. Bu, mənim onun haqqında yazdığım üçüncü materialdır. Xatırladım ki, Ceyhun haqqında ilk yazımız ərsəyə gələndə onun cəmi 5 yaşı vardı. O vaxt bu fitri istedadlı balaca pianoçu haqqında rayonda dost-tanış, bağça müəllimləri, valideynləri danışırdılarsa, indi 22 yaşlı Ceyhun Əzizovu bütün respublika tanıyır.

Əvvəlcə Salyan rayon Qulu Əsgərov adına 7 illik incəsənət məktəbini, sonra isə Bülbül adına orta ixtisas musiqi məktəbini fərqlənmə diplomu ilə bitirən Ceyhun Ü.Hacıbəyov adına Musiqi Akademiyasının fortepiano şöbəsinə qəbul olunub. Bir-birinin ardınca uğurlara imza atan gənc pianoçumuz Azərbaycanı Avropada təmsil edərək birincilik qazanıb. 2018-ci ildə iki müsabiqəyə qatılan klassik musiqi ifaçımız 8 ölkə arasında ikinci yerə layiq görülüb. Elə həmin il, həmin ayda növbəti müsabiqəyə qatılan həmyerlimiz "İstedadlısan" rubrikası ilə hazırlanmış sənədli filmdə Fransa və Cenevrədə keçirilən müsabiqədəki uğurundan ürəkdolusu söz açır.

Onun haqqındakı üç dəqiqəlik materialda bildirilir ki, düşmən üzərində qazandığımız qələbədən sonra Ceyhun könüllü olaraq "Hərbi qənimətlər parkı"nda çalışır. Hər gün parka gələnlər onun bəstələdiyi "Zəfər marşını" dinləmiş olurlar. Özünün dediyi kimi, hələ 5 yaşında ikən qeyri-peşəkarcasına bəstələdiyi, iki barmaqla ifa etdiyi bu marşın üzərində on gün işlədikdən sonra ortaya daha mükəmməl bir iş qoya bilib.

Onunla redaksiyada görüşdük. "Nə var, nə yox"dan sonra həmişəki kimi səmimi söhbətimiz alındı. ATV-nin Səhər proqramı üçün hazırlanan rubrikadan söz açıram. Bildirir ki, Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyinin (RİİB) könüllüsüdür. Birliyin bütün aksiyalarında fəal iştirak edir. "Zəfər marşı"nı bəstələməsi haqqında birliyə məlumat verəndə çox yüksək qarşılanıb. Əslində həmyerlimizin bir pianoçu kimi uğurlarına sevindiyimiz halda, o, bizi bəstəkarlığı ilə də təəccübləndirə bildi. Onun yaradıcılığını bu səmtdən də izləyə bildik.

-Tanınmış oranjimançı Vüqar Camalzadə ilə iki ay marşın üzərində işlədik. İndi hər gün Hərbi Qənimətlər Parkında bu marşın səslənməsi məni çox qürurlandırır. Çox istərdim ki, Müdafiə Nazirliyinin orkestrinin ifasında da bu marş səsləndirilsin. Ümumiyyətlə, arzularım gec, ya tez öz reallığını tapır. Hələ balaca ikən konservatoriyanın böyük arqan səhnəsini görəndə burada ifa edəcəyim günü arzuladım. 12 ildən sonra arzum reallaşdı. O səhnədəki solo konsertim çox uğurlu alındı.

O ki, qaldı bəstəkarlığa, professional bəstəkar olmasam da, hərdən şirmayı dillərin ağ-qara pərdələrində ekspromt ifamdan özüm də təəccüblənirəm. Adətən yorğunluğumu Şopenin, Raxmaninovun və Rovelin əsərlərini ifa etməklə çıxarıram. Gözlərimi yumub öz dünyamın cazibəsinə düşürəm. İnanmazsınız, orada olmasam da, Şuşanı çizirəm, onu xatırlayıram,-deyə gənc pianoçu fikirlərini bölüşür.

Magistraturanı yanvar ayında bitirəcək Ceyhunun qarşısında geniş perspektivlər açılıb. Deyir ki, sonrakı fəaliyyəti barədə hələ seçim etməyib. Amma pedaqoji sahədə öz bilik və bacarığını, öyrəndiklərini öyrətmək istəyi güclüdür. Vətənpərvər, yurdsevər həmyerlimiz harada olmasından asılı olmayaraq, "Azərbaycandanam, özü də salyanlıyam" deməsi ilə həmişə qürur duymasından danışır.

Sonda Ceyhun Əzizov bildirir ki, Azərbaycanı öz klassik musiqi ifaçılığı ilə bütün dünyada layiqincə təmsil edəcək.

-Yeni uğurlarının sevincini yaşayaq, İnşaallah.

LEYLA.

Fəxrəddin Becan oğlu Fərzəliyev (1949-2021)

Salyan rayonunun ədəbi ictimaiyyətinə ağır itki üz vermişdir. Pedaqoq, peşəkar jurnalist, istedadlı naşir, şair və tərcüməçi Fəxrəddin Becan oğlu Fərzəliyev 8 avqust 2021-ci il tarixdə, ömrünün 72 -ci ilində vəfat etmişdir. O, 1949-cu ildə Salyan rayonunun Xalac kəndində dünyaya gəlmiş və bütün mənalı həyatını doğulduğu, çalışdığı rayonun ədəbi-bədii, ictimai-siyasi həyatının salnaməsinin yaradılmasına sərf etmiş, bölgənin və respublikanın ictimai-siyasi həyatında fəal iştirak etmişdir.

F.Fərzəliyev 1975-ci ildə Salyan rayonunun içctimai-siyasi qəzeti olan "Qələbə"də əmək fəaliyyətinə başlamış və burada müxbir, şöbə müdiri, baş redaktorun müavini vəzifələrində işləmişdir. O, həmçinin müstəqil "Aysberq və həyat "qəzetinin baş redaktoru idi.

F.Fərzəliyev 50 ilə yaxın bir müddətdə mətbuat sahəsində qələm çalmış, özünün dürüstlüyü, səmimiyyəti, istedadı və zəhməti hesabına təkcə çalışdığı kollektiv arasında deyil, həm də rayon, eləcə də respublikamızın ədəbi ictimaiyyəti arasında çox böyük hörmət və nüfuz qazanmışdı. Hamı onu savadlı, dərin analitik qabiliyyətə, yaddaşa, ensiklopedik biliyə malik ziyalı kimi tanıyırdı. Bir çox ədəbi mükafatlara layiq görülən Fəxrəddin müəllimin yazıları respublikanın və keçmiş SSRİ-nin aparıcı nəşrlərində dəfələrlə çap olunmuşdur.

Fəxrəddin müəllim "Kürün töhfəsi" ədəbi birliyinin məşğələlərində iştirak edərək bədii yaradıcılıqda ilk addımlarını atan gənclərə daim diqqət və qayğı göstərmiş, onların qələm məhsullarının "Qələbə" qəzetində işıq üzü görməsində köməyini əsirgəməmişdir.

F.Fərzəliyev çox istedadlı naşir idi. Çox sayda bədii publisistik kitabların, ata-baba yurdu olan Dərələyəz mahalının tarixi - mədəni-etnoqrafik irsinin təbliği, onun insanları barədə maraqlı tədqiqatların müəllifidir. O, həm də gənc yazarların bu asan olmayan yolda irəliləməsində, tanınmasında xüsusi fəallıq göstərirdi. Yeni ədəbi qüvvələrin kitablarının hazırlanması və çapı üçün çox doğmalıqla çalışırdı. Yüzdən artıq kitaba redaktorluq etmiş, ön söz yazmış və çapı üçün nəşriyyatlarla işləməkdən yorulmamışdır.

Fəxrəddin müəllim həyat yoldaşı ilə birlikdə cəmiyyətimiz üçün iki vətənpərvər, savadlı oğul böyüdüb tərbiyə etmişlər. Övladları bu gün onun ailə ənənələrini layiqincə davam etdirməkdədirlər. Fəxrəddin müəllim təkcə ailədə deyil, eyni zamanda ali təhsilli kimya müəllimi kimi, repetitorluq fəaliyyəti ilə məşğul olaraq, yüzlərlə məzunun ali təhsil almasında, xüsusən müxtəlif ixtisaslar üzrə Azərbaycan Dövlət Tibb Universitetinə qəbul olunmasında əməyini əsirgəməmişdir. Onun dinləyiciləri arasında bu gün yüksək vəzifələrdə çalışanlar çoxdur.

Fəxrəddin Fərzəliyev "Qələbə" qəzeti kollektivi üçün savadlı iş yoldaşı, mehriban dost, səmimi yoldaş və müdrik ağsaqqal idi. Onun xatirəsi yaddaşımızdan heç vaxt silinməyəcək, daim qəlbimizdə yaşayacaqdır. Həyat yoldaşı Etiraz xanıma, övladları Vüsal həkimə, kimyaçı-mühəndis Sirusa, qardaşlarına, doğmalarına, yaxınlarına dərin hüznlə başsağlığı veririk.

Allah rəhmət eləsin.

"Qələbə" qəzetinin kollektivi.

***

Avqust ayının səkkizində mərhum doğulduğu Xalac kənd qəbiristanlığında torpağa tapşırıldı. Dəfn mərasimində ailə üzvləri, qohumları ilə bərabər, çalışdığı "Qələbə"qəzetinin yaradıcı kollektivi, rayon və kənd ictimaiyyətinin nümayəndələri iştirak edirdilər. Şair-publisist Nizami Oruc, Hacı İmamqulu, "Qələbə" qəzetinin baş redaktoru Rüstəm Məlikov, müxbir, şair-publisist Əzizağa Məmmədli, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü, şair Emil Rasimoğlu, kənd ağsaqqallarından Məmməd Əmrəliyev və başqaları çıxış edərək mərhumun yüksək insani keyfiyyətləri barədə danışmış, onun həyat və fəaliyyəti barədə unudulmaz xatirələrini söyləmişlər.

Daha torpaqlarımızın işğal acısını yaşamayacağıq

23 avqust 1993-cü ildə erməni hərbi birləşmələri tərəfindən Füzuli rayonunun ümumi sahəsi 139.393 hektar təşkil edirdi. Rayonun 125.368 hektar ərazisi (50 kənd və rayon mərkəzi) işğal altına düşmüşdü. Lakin sonra 13 qəsəbə və 20 kənd azad edilmişdi. Qeyd edək ki, işğal nəticəsində Füzuli rayonu 1100-dən artıq şəhid vermişdi. Yüzlərlə Füzuli sakini yaralanmış, əlil olmuş, əsir düşmüşdü.

Füzuli rayonu ilə eyni vaxtda işğal olunan və ərazisi 1.050 kvadrat kilometr olan Cəbrayılın Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olunması ilə 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 5 məscid, 2 muzey, 129 tarixi abidə, 149 mədəniyyət ocağı işğal altına düşmüşdü.

Zəngin yeraltı sərvətlərə və təbii gözəlliyə malik olan Füzuli və Cəbrayıl rayonlarının iqtisadiyyatına sarsıdıcı zərbə vurulmuşdu.

Əlbəttə, möhtərəm Prezidentimiz İlham Əliyevin də dediyi kimi, mənfur düşmən yurd yerlərimizi xarabazara çevirsə də, daşı daş üstə qoymasa da, dövlətimizin gücü, iradəsi ilə bu yerlərdə ən yüksək səviyyədə, tikinti-abadlıq, quruculuq işləri aparılacaq və soydaşlarımız öz dədə-baba ocaqlarında asudə, rahat yaşayacaqlar.

Deyirlər, xoşbəxtlik sadəcə andır. Amma saatlarla, günlərlə, aylarla, illərlə yaşanan xoşbəxtlik də varmış. 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımız Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında ordumuz tərəfindən cəmi 44 gün ərzində azad olundu, təcavüzkar Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur edildi. Bu böyük Qələbənin həyatımıza gətirdiyi qürur, sevinc, fərəh doğma Azərbaycanımız var olduqca, dövlətimiz var olduqca bizi tərk etməyən əbədi xoşbəxtlikdir.

Bu gün xalqımız namərd düşmənin əsarəti altında uzun illər ərzində inləyən torpaqlarımızın ağrı-acısını deyil, azad edilmiş yurd yerlərimizin ölçüyəgəlməz sevincini yaşayır.

Allah rəhmət eləsin

Salyan rayon "Qələbə" qəzetinin kollektivi qəzetin sabiq redaktor müavini
FƏXRƏDDİN FƏRZƏLİYEVİN
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Yazıçı-publisist, "Qələbə" qəzetinin Qaraçala qəsəbə müxbir postunun sədri olmuş Sabir Gədəbəyli (Həsənov) yaxın dostu, qələm yoldaşı
FƏXRƏDDİN FƏRZƏLİYEVİN
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Rayon Ağsaqqallar Şurasının sədri Beydulla İmanov və üzvlər, şura üzvü yazıçı-publisist,
FƏXRƏDDİN FƏRZƏLİYEVİN
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Salyan rayon "Ziyalılar" İctimai Birliyinin sədri, Əməkdar müəllim Allahverdi Piriyev və birliyin üzvləri yazıçı-publisist
FƏXRƏDDİN FƏRZƏLİYEVİN
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Jurnalistlər Birliyi Salyan rayon təşkilatının üzvləri, birliyin üzvü, tanınmış jurnalist
FƏXRƏDDİN FƏRZƏLİYEVİN
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Məşədi Mətləb, həkim Əlixeybər və Hacı Rəşad Axundovlar yaxın dostları, tanınmış jurnalist, yazıçı-publisist
FƏXRƏDDİN FƏRZƏLİYEVİN
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Salyan şəhər 2 saylı tam orta məktəbin pedaqoji kollektivi məktəbin müəllimi Zöhrə Fərzəliyevaya, qayınatası
FƏXRƏDDİN FƏRZƏLİYEVİN
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Salyan şəhər 2 saylı tam orta məktəbin kollektivi, məktəbin kompüter operatoru Xanım Abasbəyliyə, qardaşı
MƏHARƏTİN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Salyan şəhər 2 saylı tam orta məktəbin kollektivi, məktəbin tarix müəllimi
PAKİZƏ XANIMIN
vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Salyan şəhər 2 saylı tam orta məktəbin kollektivi, məktəbin rus dili müəllimi Seyranə Həsənovaya, anası
NAİBƏNİN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Rayon Mərkəzi Xəstəxanasının təcili və təxirasalınmaz tibbi yardım şöbəsinin kollektivi, həkim yoldaşları Vüsal Fərzəliyevə, atası
FƏXRƏDDİN FƏRZƏLİYEVİN
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Etibarsızdır

Salyan rayon Hərbi Komissarlığı tərəfindən Salyan rayon Marışlı kənd sakini Babayev Sahib Elşən oğlunun adına 23.12.2015-ci il tarixində verilmiş SX seriyalı, 0274302 saylı hərbi bilet itdiyi üçün etibarsız sayılır.

Salyan rayon Aqrar İslahat Komissiyasının 31 avqust 1999-cu il tarixli 08 saylı qərarı ilə Salyan rayon Qaraçala ŞTQ sakini mərhum Dadaşov Zakir Dadaş oğlunun adına verilmiş Torpağın Mülkiyyətə Verilməsinə dair Şəhadətnamə (JN-1119, kod-80902016) itdiyi üçün etibarsız sayılır.

Əziz oxucular!

2021-ci ilin II yarım ili üçün "Qələbə" qəzetinə abunə kampaniyası davam edir

Altı aylıq abunə qiyməti 30 manatdır

Abunə "Qələbə" qəzetinin təqdim etdiyi elektron-qaimə vasitəsilə hesaba köçürməklə aparılır. Əlavə məlumat almaq üçün redaksiyamızın 255-29-26 və 255-23-68 saylı telefonlarına zəng edə bilərsiniz.

"Qələbə" qəzetinin vaxtında çatdırılması ilə bağlı hər hansı problemlə qarşılaşarkən Salyan poçtamtına: 255-07-15 nömrəli telefonla müraciət etməyiniz xahiş olunur.

"Qələbə" qəzeti.

Baş redaktor əvəzi: L.Nəsirova

Müəlliflə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Faktlara görə müəlliflər cavabdehdir.

Telefonlarımız: (021)255-23-68, 255-29-26
E.mail:qelebesalyan@gmail.com
Ünvanımız: AZ 5200
Salyan, Heydər Əliyev prospekti 92

Qeydiyyat N478.
Tiraj: 500 Sifariş: 23-24
Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və fiziki şəxs Zeynalov Bayram Nəzər oğluna məxsus "BZ" mətbəəsində çap edilmişdir

Kapital Bankın Salyan filialında hesab №AZ17AİİB33070019444300222143
VÖEN:7000080071

Məsul növbətçi: T.B.Nəsirli